21 Fevral – Beynəlxalq Ana Dili Günüdür

# Əcdadlarımızın mirası –

## onu göz bəbəyi kimi qorumalı, gələcək nəsillərə ötürməliyik...

Tarixboyu başı bəlalar çəkmiş Azərbaycan xalqı müxtəlif təqib və repressiyalara məruz qalsa da, zamanın ağır sınaqlarından ləyaqətlə çıxmış, öz ana dilini qoruyub saxlaya bilmişdir. Bu işdə bədii söz ustalarının, ədəbiyyat korifeylərinin əvəzsiz xidmətləri var. Onlar ümumxalq dilinə həmişə həssas münasibət bəsləmiş, onun zənginləşməsi və hərtərəfli inkişafı üçün fədakarlıqlar göstərmiş, ana dilini milli kökümüz, mədəniyyətimiz, əxlaqımız, millətin özünüisbatı, həyat tərzi və mədəni irsi təki dəyərləndirmişlər.

Mirzə İbrahimov bununla bağlı fikirlərini belə ifadə edirdi: *"Mənim ana dilim! Bu o dildir ki, Füzuli eşqi, Nəsimi dözümü, Vurğun şirinliyi, Üzeyir dünyası bu dildə ifadə olunmuş, zaman-zaman qanımıza, canımıza hopmuşdur..."*

Bəxtiyar Vahabzadə dilimizi başqa təsirlərdən qoruyaraq onu gələcək nəsillərə hədiyyə verməyi tövsiyə edirdi:

***"Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,***
***Bu dil bir-birimizlə əhdi-peymanımızdır.***
***Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,***
***Bu dil əcdadımızın bizə miras verdiyi***
***Qiymətli xəzinədir, onu gözlərimiztək***
***Qoruyub nəsillərə biz də hədiyyə verək..."***






Əlbəttə, ana dilinə məhəbbət bütün dünyada mövcuddur. YUNESKO tərəfindən fevralın 21-nin Beynəlxalq Ana Dili Günü kimi elan edilməsi də bu ehtiramın ifadəsidir. Bu həm də bəzi dillərin məhv olmasının qarşısının alınması istiqamətində aparılacaq beynəlxalq aksiyalara dəstəyin təcəssümüdür.

**Müvafiq qərar 1999-cu ilin noyabrında Banqladeşin BMT-dəki daimi nümayəndəsinin təşəbbüsü əsasında verilmişdir. Məhz bu tarixin seçilməsi isə 1952-ci il fevralın 21-də baş vermiş hadisə ilə bağlıdır. Belə ki, o dövrdə Pakistanda benqal dilinin qadağan edilməsinə etiraz olaraq keçirilən aksiyada polis və silahlı qüvvələrin müdaxiləsi nəticəsində 3 nəfər həlak oldu. YUNESKO müraciəti müsbət qarşılayaraq həmin şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq fevralın 21-nin Beynəlxalq Ana Dili Günü adlandırılması haqqında qətnamə qəbul etdi.**

*Hazırda dünyada 6700 dil mövcud olsa da, onların yalnız 5 faizindən fəal istifadə edilir və bu dillərdə sənədləşmə işləri aparılır. ABŞ Milli Coğrafiya Cəmiyyətinin (National Geographic Society) gəldiyi qanaata görə, dünyada har 14 gündən bir dillərdən biri sıradan çıxır. Bu gedişlə də 2100-cü ilə qədər daha 3500 dilin məhv olacağı gözlənilir. Hazırda mövcud olan dillərdən 28 faizində cəmi 1000 nəfərə qədər adam danışır ki, bu da həmin dillərin son dərəcə təhlükəli mərhələ yaşadığını göstərir. Maraqlıdır ki, Əfqanıstan ərazisində mövcud olan tirahi dilində cəmi 100 adam danışa bilir...*



***

Hər bir dilin və özünəməxsus gözəlliyi vardır. Bir Azərbaycan vətəndaşı olaraq bizim üçün dilimiz daha doğma, cazibəli və şirindir. Amma çox təəssüf ki, vaxtilə əcnəbi dillərə meyilli olan insanlar ana dilində danışmağı özlərinə ar bilirdilər. Hətta Azərbaycanın rəsmi dairələrində, dövlət idarələrində özgə dildə danışmağa üstünlük verilirdi. Quruluşun sərt rejimi bir sıra məmurlarda doğma dilimizə qarşı ögey münasibət formalaşdırmışdı. Bütün ziddiyyətli dövrlərdə Azərbaycanın yazıçı və şairləri dilimizin qoruyucusu olmaq missiyasını ləyaqətlə yerinə yetirdilər.

Başqa dilləri öyrənməyə aludə olub öz dilini unudanları Tofiq Bayram çox haqlı olaraq tənqid atəşinə tuturdu:



**"Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir..."**

**Heydər Əliyev**

*"Mən qədim "Qarabağ şikəstəsi"yəm,*
*Üzeyir nəfəsli gül dəstəsiyəm.*
*Vaqifin, Vurğunun nifrət səsiyəm –*
*Öz ana dilini bilməyənlərə!*

*Yad dildən pay umub kişi dilənməz,*
*Bu ləkə üstündən heç vaxt silinməz.*
*Füzuli şeirdə kimdir, bilinməz –*
*Öz ana dilini bilməyənlərə!*

*Qədrini bilməsə kamanın, neyin,*
*Saman çuvalıdır o baş, o beyin.*
*Bu ana torpaqda fərari deyin –*
*Öz ana dilini bilməyənlərə!"*

Tariximizin son 45 ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə ümumişlək, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə – diplomatiya aləminə yol açması, zənginləşə-zənginləşə nüfuz qazanması, hətta dünyanın mötəbər kürsülərindən eşidilməsi ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin qayğısı və fədakarlığı sayəsində baş vermişdir.

Ulu öndərin ana dilimizə bəslədiyi məhəbbət və prinsipiallıq sayəsində 1978-ci ildə konstitusiyanın 73-cü maddəsinə Azərbaycan dilinin dövlət dili olması barədə xüsusi bir müddəa daxil edilmişdir.




Heydər Əliyev çıxış və nitqlərində ana dilinin gözəlliyindən, zənginliyindən məharətlə istifadə edərək dilçi və ədəbiyyatçılardan daha səlis və rəvan danışırdı. Tərifində də, tənqidində də elə ifadələr, sözlər işlədirdi ki, bəzən ən təcrübəli dilşünas-alimlər də ulu öndərin yaddaşına, sözdən istifadə məharətinə, Azərbaycan dilinə yanaşma istedadına heyrətlənməyə bilmirdilər.

Həyat göstərdi ki, Heydər Əliyev bütün ömrü boyu Azərbaycan dilinə məhz millətin taleyi kimi yanaşaraq onu sevməklə bərabər, keşiyində də mərdliklə dayandı, nüfuzunu qaldırdı, tərəqqisi üçün illərlə mübarizə apardı və istəyinə nail oldu. Elə bu şərəfli xidmətin nəticəsidir ki, ana dilimizin adı çəkilən kimi ulu öndəri xatırlayırıq.

Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq ifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir...

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli 506 saylı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli 552 saylı fərmanlar, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 2004-cü il 12 yanvar tarixli 55 saylı və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli 56 saylı sərəncamlarına əsasən latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklərin, elmi əsərlərin, lüğətlər və bədii ədəbiyyat nümunələrinin çap olunaraq istifadəyə verilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da əhəmiyyətli olmuşdur.**

Eyni zamanda Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması dövrün tələbi olaraq qalır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsində və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli 2236 saylı və "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli 2240 saylı sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsində mühüm fəaliyyət sənədləridir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsində və ölkədə dilçiliyin inkşafına dair Dövlət Proqramı" həmin sərəncamlardan irəli gələn məsələlərin həllinə yönəlmiş və 2013–2020-ci illər ərzində bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur...

***

**Müdriklərin fikrincə, dil ürəyin güzgüsü, insan kamilliyinin açarıdır. Onu yaşadan və inkişaf etdirən mənsub olduğu xalqdır. Bu yerdə ulu öndərin hər birimiz üçün ibrətamiz və istiqamətverici məna daşıyan tövsiyəsini xatırlamamaq olmur: "Musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər dil olmasa, həmin dildə ədəbiyyat da, mahnı və musiqi də olmaz".**

Dövlətimizin dilin inkişafı və qorunması ilə bağlı qəbul etdiyi qanun, fərman və sərəncamların icrası istiqamətində görəcəyimiz işlər hələ çoxdur. Bu məsələdə hamımız bir nəfər kimi prinsipial vətəndaşlıq mövqeyi nümayiş etdirməliyik... ❖

Y.Vəliyev



